

***"Mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə, – bir əsrdən öncə, – sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və ən vacib olan, müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasına görə tanınan ölkədənəm. Azərbaycan həm də 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür. Qızların təhsilinə gəldikdə isə müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi azərbaycanlı xeyriyyəçi Zeynalabdin Tağıyev tərəfindən 1901-ci ildə mənim doğulduğum Bakı şəhərində yaradılmışdır…".***

# Hədəflərimiz də böyükdür, onlara çatmaq əzmimiz də…

Bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya məxsusdur. Birinci xanım həmin fikirləri ICESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə təşkil olunmuş videokonfrans formatında tədbirdə çıxışı zamanı dilə gətirdi.

Qeyd edək ki, adı çəkilən tədbir BMT Baş Assambleyasının qəbul etdiyi, 11 fevral tarixini "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü elan edən qətnaməyə uyğun olaraq təşkil edilmişdi. İstər BMT-nin, istərsə də Azərbaycan ilə uzun illərdir çox məhsuldar və konstruktiv əməkdaşlıq edən ICESCO-nun 2021-ci ili "Qadınlar ili" elan etməsi çox tarixi və əlamətdar bir hadisədir. Çünki bu gün həyatın bütün ağırlıqları, yükü, demək olar ki, qadınların çiyinləri üzərindədir. Bu gün dünyada hər cür fiziki və mənəvi təzyiqlərə, zorakılıqlara məruz qalanlar da məhz zərif cinsin nümayəndələri olan qadınlardır.

Bu gün dünyanın elə bir nöqtəsi, elə bir coğrafiyası yoxdur ki, orada qanlı qarşıdurmalar, qırğınlar, vətəndaş müharibələri, terror aktları, aclıq, səfalət, insanlıq dramları yaşanmasın. Həmin qanlı qarşıdurmaların, bu insanlıq dramlarının baş qurbanları da yenə qadınlardır. Odur ki, ilin istənilən gününü, təqvimin istənilən ilini qadınlara ayırsalar, həsr etsələr belə, yenə də azdır.

Qadınlar, zərif cinsin nümayəndələri hər zaman, xüsusi diqqətə, həssas münasibətə, qayğıya layiqdirlər, belə demək mümkünsə, möhtacdırlar. Bu istiqamətdə atılan istənilən müsbət addım da yalnız və yalnız alqışa, təqdirə layiqdir. Çox sevindirici və qürurverici haldır ki, tarixən bir çox zülmlərə, insanlıq dramlarına məruz qalan, elə təkcə 1988-ci ildən 2020-ci ilin sonlarına qədər 32 illik qanlı münaqişənin odundan–alovundan keçən Azərbaycan qadını hər məqamda öz mərdanəlєyi, qəhrəmanlığı ilə seçilmiş, fərqlənmişdir, kişilərlə çiyin-çiyinə, kürək-kürəyə olmuş, çalışmışdır.

Bəli, 32 illik münaqişəyə son qoyan tarixi 44 günlük İkinci Vətən müharibəsində də Azərbaycan qadını, Azərbaycan qızları bir andaca müsəlləh əsgərə çevrildilər, müharibənin qalibiyyətlə başa çatması üçün əllərindən gələni əsirgəmədilər. İkinci Vətən müharibəsinin dastan yazan qəhrəmanları arasında Azərbaycan qadınları, Azərbaycan xanımları da oldu…

Qanlı Naftalan – Qaşaltı, Gəncə, Bərdə teraktlarının əsas qurbanlarından bir çoxu yenə Azərbaycan qadını oldu. Amma, insanlıq əleyhinə olan bu barbarlıq, vandallıq aktları, ümumən 32 illik münaqişə Azərbaycan qadınının, Azərbaycan xanımının əzmini, iradəsini qıra, sındıra bilməmiş, əksinə, onu düşmənə qarşı daha əzmkar, daha barışmaz etmişdir. Bəli, 44 günlük tarixi Qələbədə baş qəhrəmanlardan biri də məhz Azərbaycan qadını oldu. Qürur və iftixar nümunəsi!

İstər ilk, cəmi 23 aylıq Cümhuriyyət dönəmində, istərsə də artıq 30 illiyini qeyd etməyə hazırlaşdığımız ikinci müstəqillik dövründə qadın siyasəti Azərbaycan dövlətinin baş, əsas prioritetlərindən biri və birincilərindən olmuşdur. Mehriban xanımın da vurğuladığı kimi, istər müsəlman – Şərq aləmində, istərsə də dünyada, bir çox oturuşmuş dövlətlərdən öncə, qadına seçib və seçilmək hüququ verən məhz Azərbaycan dövləti olmuşdur.

Bu, Azərbaycan qadınına, bütövlükdə qadına verilən dəyərin, ehtiramın başlıca nümunələrindəndir. Bu, bizim iftixar tariximizdir.

Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Qadınlar ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54 faizini, fəlsəfə doktorlarının 51 faizini, elmlər doktoru dərəcəsinə malik olanların 46 faizini və elmi tədqiqatçıların 56 faizini təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının ümumi kollektivinin 59 faizi qadınlardan ibarətdir.

Bununla yanaşı, sürətlə dəyişən dünyamızda qızların təhsili və onların elm sahəsində iştirakı yeni çağırışlara müvafiq olmalıdır. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Bizim ölkədə bu rəqəm 40 faizdir, yəni orta dünya göstəricisindən artıqdır.

Həmçinin, bir çox azərbaycanlı qadın elmə böyük töhfələr verib və onlar elm sahəsi ilə məşğul olan qızlar və gənc xanımlar üçün əsl ilham mənbəyidir. Lakin bu gün ən vacib məsələ qızların və gənc xanımların iştirak səviyyəsinin yaxşılaşdırılması üçün münbit şəraitin yaradılmasının davam etdirilməsi və elm sahəsində gender boşluğunun doldurulmasıdır.

Geniş və məzmunlu çıxışında bu məqamlara toxunan Mehriban xanım "Bir nümunə olaraq bu yaxınlarda BMT-nin İnkişaf Proqramı ilə bərabər başladığımız "Qadınlar elm, texnologiya, mühəndislik və riyaziyyatda" adlı mentorluq proqramını qeyd edə bilərəm ki, burada məqsəd tələbə və gənc xanımların həmin sahədə uğur qazanmış nümunəvi şəxslərlə təmas yaratması və onlara təhsil və karyera sahəsində çağırışların öhdəsindən gəlmək üçün məsləhətlərin verilməsidir" – deyərək, bildirmişdir ki, elm, texnologiya və innovasiya dünyada cəmiyyətlərin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsidir.

Birinci vitse-prezident sonra "ICESCO-nun xoşməramlı səfiri qismində mən bütün üzv dövlətlərə bu sahələrə daha çox sərmayə yatırmağa, habelə zəruri siyasət və birgə fəaliyyət planları işləyib hazırlamağa dair çağırış edirəm. Biz qadınlar və qızların sabahın əmək bazarında lazımi bacarıqlara yiyələnmələri üçün innovativ maliyyə mexanizmləri yaratmalıyıq" – deyə Azərbaycanın bu mənada öz töhfəsini verməyə hazır olduğunu bəyan etmişdir.

Birinci vitse-prezident, həmçinin bildirmişdir ki, hazırda Azərbaycan dövləti qarşısında azad olunmuş ərazilərin canlandırılması və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının təmin edilməsi kimi nəhəng vəzifə dayanır. Bəli, deyildiyi kimi, biz bunun da öhdəsindən gələcəyik. Biz dağıdılmış şəhərləri və kəndləri də bərpa edəcəyik. Biz orada məktəblər tikəcəyik. Biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik.

Biz işğal zamanı zərər görmüş mədəni irs abidələrinin vəziyyətinin qiymətləndirilməsində ICESCO-nun Azərbaycan hökuməti ilə birgə çalışmağa hazır olduğunu yüksək qiymətləndiririk. Eyni zamanda, ICESCO-nun Azərbaycanda regional nümayəndəlik təsis etməsi imkanının nəzərdən keçirilməsinə görə xüsusi minnətdarlığımızı bildiririk. Həmin nümayəndəlik digər sahələrlə yanaşı, qadınlar və qızların elmdə rolunun artırılmasına konkret diqqət yetirməklə elm sahəsində əməkdaşlığımızı gücləndirə bilər. Bəli, belə də olacaq, Azərbaycan dövləti, Azərbaycan qadını bu məsələdə də öz sözünü deyəcək, töhfəsini verəcək, Azərbaycan modelini yaradacaqdır. Bizim hədəflərimiz böyükdür və bu hədəflərə mütləq şəkildə çatacağıq, necə ki, zaman-zaman çatmışıq və çatırıq. 44 günlük tarixi Zəfər də bunun şanlı bir nümunəsidir.

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini***